BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№4 Sosial-siyasi elmlər seriyası 2013*

UOT 343.21.7

# TERROR AKTININ ANLAYIŞI VƏ İCTİMAİ TƏHLÜKƏLİLİYİ

**E.E.NAĞIYEV**
***Xüsusi Dövlət Mühafizə Xidməti***
***Emin_Nagiyev@dmx.gov.az***

*Məqalədə terror aktının anlayışı və ictimai təhlükəliliyi haqqında Azərbaycan Respublikasının Konstitusiyasında və Azərbaycan Respublikasının Cinayət Məcəllәsində verilən müddəalar və prinsiplər analiz edilmişdir.*

**Açar sözlər:** dövlət əleyhinə cinayət, korrupsiya cinayətləri silahlı qiyam, terror aktı, silahlı birləşmələr

Azərbaycan Respublikasının Konstitusiyasının 12-ci maddəsinə əsasən insan və vətəndaşların hüquqlarının və azadlıqlarının Azərbaycan Respublikasının vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsi dövlətin ali məqsədidir. Konstitusiyanın preambula hissəsində qeyd olunur:

Azərbaycan xalqı özünün çoxəsrlik dövlətçilik ənənələrini davam etdirərək, «Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında» Konstitusiya Aktında əks olunan prinsipləri əsas götürərək, bütün cəmiyyətin və hər kəsin firavanlığının təmin edilməsini arzulayaraq, ədalətin, azadlığın və təhlükəsizliyin bərqərar edilməsini istəyərək, keçmiş, indiki və gələcək nəsillər qarşısında öz məsuliyyətini anlayaraq, suveren hüququndan istifadə edərək, təntənəli surətdə aşağıdakı niyyətlərini bəyan edir:

- Azərbaycan dövlətinin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qorumaq.
- Konstitusiya çərçivəsində demokratik quruluşa təminat vermək.
- Vətəndaş cəmiyyətinin bərqərar edilməsinə nail olmaq.
- Xalqın iradəsinin ifadəsi kimi qanunların aliliyini təmin edən hüquqi, dünyəvi dövlət qurmaq.
- Ədalətli iqtisadi və sosial qaydalara uyğun olaraq hamının layiqli həyat səviyyəsini təmin etmək.
- Ümumbəşəri dəyərlərə sadiq olaraq bütün dünya xalqları ilə dostluq, sülh və əmin-amanlıq şəraitində yaşamaq və bu məqsədlə qarşılıqlı fəaliyyət göstərmək.

Göstərilən müddəaları dəqiqləşdirən Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 2-ci maddəsində göstərilmişdir ki, Cinayət Məcəlləsinin vəzifələri:

1) sülhü və bəşəriyyətin təhlükəsizliyini təmin etməkdən;

2) insan və vətəndaş hüquq və azadlıqlarını;

3) mülkiyyəti, iqtisadi fəaliyyəti, ictimai qaydanı və ictimai təhlükəsizliyi;

4) ətraf mühiti;

5) Azərbaycan Respublikasının konstitusiya quruluşunu cinayətkar qəsdlərdən qorumaqdan, habelə cinayətlərin qarşısını almaqdan ibarətdir.

Bu vəzifələri həyata keçirmək üçün Azərbaycan Respublikasının Cinayət Məcəlləsi cinayət məsuliyyətinin əsaslarını və prinsiplərini, şəxsiyyət, cəmiyyət və dövlət üçün təhlükəli olduğuna görə cinayət sayılan əməllərin dairəsini və həmin cinayətlərin törədilməsinə görə tətbiq edilən cəzaların növlərini, həddini və həcmini, habelə digər cinayət-hüquqi xarakterli tədbirləri müəyyən edir (1, 435).

Terror aktı cinayətinin özünün ictimai təhlükəliliyi birinci növbədə ondan ibarətdir ki, göstərilən əməl bilavasiə dövlət xadiminin və ya ictimai xadimin, habelə xarici dövlət nümayəndəsinin xidməti və ya siyasi fəaliyyətinə son qoymaq və ya bu fəaliyyətə görə qisas almaq məqsədilə onun həyatına sui-qəsd edir. Bu baxımdan da, göstərilən cinayət əməlinin Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin «Dövlət hakimiyyəti əleyhinə olan cinayətlər» adlanan XI bölməsinin, «Dövlətin konstitusiya quruluşunun əsasları və təhlükəsizliyi əleyhinə olan cinayətlər» fəslində öz təsbitini tapmışdır (6, 349).

Hüquq ədəbiyyatında qeyd olunur ki, terror aktı cinayəti sosial-siyasi cəhətdən dövlət xadiminin və ya ictimai xadimin həyatına qəsd etməklə və ya digər zorakılıq hərəkətləri ilə siyasi rəqibin aradan götürülməsini və bununla da daha ağır ictimai təhlükəli əməlin törədilməsini – terrorizmin törədilməsini ehtiva edir.

Azərbaycan Respublikasının sovet dövrü cinayət hüququna nəzər salsaq görərik ki, 1922, 1927 və 1960-cı illərdə mövcud olmuş Azərbaycan SSR Cinayət Məcəllələrində dövləti cinayətlər bir qayda olaraq iki hissədən ibarət olmuşdur:

- terror aktı da daxil olmaqla xüsusilə təhlükəli sayılan dövləti cinayətlər;
- sair dövləti cinayətlər.

Azərbaycan Respublikasının qüvvədə olan 1999-cu il tarixli Cinayət Məcəlləsini əvvəllər qüvvədə olan 1960-cı il Cinayət Məcəlləsindən fərqləndirən başlıca prinsipial fərq məhz cinayət qanunvericiliyinin Xüsusi hissəsində olan qanunla qorunan ictimai münasibətlərin yerləşmə iyerarxiyası olmuşdur. Əvvəlki cinayət qanunvericiliyində qanunla qorunmalı olan başlıca mənafe – dövlət mənafeyi qəbul olunurdusa, müasir cinayət qanunvericiliyində şəxsiyyət əleyhinə olan cinayətlər digər cinayətlərdən fərqli olaraq ön plana çəkilmişdir (4, 123-124).

Onu da qeyd edək ki, 1960-cı il Cinayət Məcəlləsindən fərqli olaraq 1999-cu il tarixli CM-də dövlət hakimiyyəti əleyhinə olan cinayətlərin Xüsusi hissənin 5-ci bölməsidə göstərilməsi heç də onun ictimai əhəmiyyəti az olan

cinayətlər kateqoriyasına daxil olmasına dəlalət etmir. Sadəcə olaraq beynəlxalq hüququn hamılıqla tanınmış norma və pinsiplərinə görə dövlət tərəfindən mühafizə olunan sülh və insanlıq əleyhinə olan cinayətlər, şəxsiyyətin həyat və sağlamlığı, şəxsiyyətin azadlığı və ləyaqəti mülkiyyət və digər hüquqları ilə bağlı yaranan ictimai münasibətlər daha prioritet xarakter daşıyır.

Müstəqil Respublikamızın qüvvədə olan sonuncu Cinayət Məcəlləsi sistemləşdirilmiş və hər bir cinayət növ obyektinə görə Xüsusi hissədə müvafiq fəsildə yer almışdır. Məsələn, dövlət hakimiyyəti əleyhinə olan cinayətlər fəslinə aşağıdakı ictimai təhlükəli əməllər daxildir:

- dövlətə xəyanət;
- Azərbaycan Respublikasının Silahlı qüvvələrində və Azərbaycan Respublikası qanunvericiliyi ilə nəzərdə tutulmuş digər silahlı birləşmələrdən Azərbaycan xalqına və konstitusiyalı dövlət orqanlarına qarşı istifadə etmə;
- casusluq;
- dövlət xadiminin və ya ictimai xadimin həyatına sui-qəsd etmə (terror aktı);
- hakimiyyəti zorla ələ keçirmə və ya onu zorla saxlama;
- qanunvericilikdə nəzərdə tutulmayan silahlı birləşmələri və ya qrupları yaratma;
- silahlı qiyam;
- dövlət əleyhinə yönələn açıq çağırışlar;
- təxribat;
- milli, irqi, sosial və ya dini nifrət və düşmənçiliyin salınması;
- dövlət sirrini yayma;
- məzmununda dövlət sirri olan sənədləri itirmə.

Göstərilən cinayətlər Azərbaycan Respublikasının siyasi sisteminin bütövlüyünə və siyasi stabilliyə qarşı yönələn ictimai təhlükəli əməllərdir. Onu da nəzərə almaq lazımdır ki, əvvəllər qüvvədə olan cinayət qanunvericiliklərində zənnimizcə, daha doğru anlayış onunla ifadə olunurdu ki, terror aktı cinayəti hər bir halda dövlət xadiminin və ya ictimai xadimin öldürülməsi ilə yanaşı həm də dövlətin siyasi stabilliyinə və dövlət hakimiyyətini devirmək məqsədilə ilə törədilən cinayət əməlidir. Bu baxımdan da deyə bilərik ki, törədilən terror aktlarının bir çoxlarının arxasında məhz qeyd olunan xüsusi məqsəd dayanır (1, 245-246).

Azərbaycan Respublikasının Konstitusiyasının 6-cı maddəsinə görə Azərbaycan xalqının heç bir hissəsi, sosial qrup, təşkilat və ya heç bir şəxs hakimiyyətin həyata keçirilməsi səlahiyyətini mənimsəyə bilməz. Hakimiyyətin mənimsənilməsi xalqa qarşı ən ağır cinayətdir. Azərbaycan Respublikasında dövlət hakimiyyətinin bütün qolları, yəni qanunvericilik, icra və məhkəmə hakimiyyətləri Azərbaycan Respublikasının qanunları əsasında təşkil olunur və fəaliyyət göstərir. Dövlət hakimiyyətinin təşkil olunmasında Azərbaycan xalqının rolu əvəzsizdir. Belə ki, istər icra hakimiyyəti başçısının – prezidentin, istərsə də qanunvericilk hakimiyyətinə deputatların seçilməsi, bilavasitə

Azərbaycan xalqının iradəsi ilə həyata keçirilir. Yalnız bu halda dövlət hakimiyyəti xalqın iradəsi əsasında formalaşan səlahiyyətli orqan hesab edilə bilər. Məhz bu baxımdan maddənin birinci hissəsində ümumxalq iradəsinə əsaslanan hakimiyyətin hər hansı bir sosial qrup, təşkilat və ya şəxs tərəfindən mənimsənilməsinin yolverilməzliyi təsbit edilmişdir. Konstitusiyada belə bir müddəanın göstərilməsi Azərbaycan dövlətinin hüquqi dövlət kimi formalaşmaq niyyətindən, habelə insan və vətəndaşlar üçün müəyyən edilən hüquq və azadlıqları qorunmaq vəzifəsindən irəli gəlir. Hakimiyyətin mənimsənilməsi xalqın arzu və iradəsinə qarşı yönəldiyinə görə həmin maddənin ikinci hissəsi bu hərəkətləri xalqa qarşı ən ağır cinayət adlandırır. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 15.5-ci maddəsinə görə həmin əməllər xüsusilə ağır cinayət hesab edilir. Həmin maddəyə əsasən cinayət Məcəlləsi ilə nəzərdə tutulmuş əməllər (hərəkət və ya hərəkətsizliklər) xarakterindən və ictimai təhlükəlilik dərəcəsindən asılı olaraq böyük ictimai təhlükə törətməyən, az ağır, ağır və xüsusilə ağır cinayətlərə bölünür. Qəsdən və ya ehtiyatsızlıqdan törədilməsinə görə CM-si ilə azadlıqdan məhrum etmə ilə bağlı olmayan cəza nəzərdə tutulmuş əməllər, yaxud qəsdən və ya ehtiyatsızlıqdan törədilməsinə görə bu Məcəllə ilə nəzərdə tutulmuş azadlıqdan məhrum etmə cəzasının yuxarı həddi iki ildən artıq olmayan əməllər böyük ictimai təhlükə törətməyən cinayətlər hesab olunur. CM-si ilə qəsdən və ya ehtiyatsızlıqdan törədilməsinə görə nəzərdə tutulmuş azadlıqdan məhrum etmə cəzasının yuxarı həddi yeddi ildən artıq olmayan əməllər az ağır cinayətlər hesab olunur. Qəsdən və ya ehtiyatsızlıqdan törədilməsinə görə nəzərdə tutulmuş azadlıqdan məhrum etmə cəzasının yuxarı həddi on iki ildən artıq olmayan əməllər ağır cinayətlər hesab olunur. Qəsdən törədilməsinə görə on iki ildən artıq azadlıqdan məhrum etmə cəzası və ya daha ağır cəza nəzərdə tutulmuş əməllər xüsusilə ağır cinayətlər hesab olunur. CM-nin 277-ci maddəsinə nəzər salsaq görərik ki, ən ağır cəza olan on beş il müddətinə və ya ömürlük azadlıqdan məhrum etmə cəzasını terror aktı cinayətinə görə cinayət qanunvericiliyinin müəyyənləşdirdiyi cinayət hüquqi mübarizə tədbiridir (4, 246-247).

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin XI bölməsində cinayət hüquqi mühafizə altına aşağıdakı növ obyektlərinə görə fərqlənən cinayətlər təsbit edilmişdir:

- dövlətin konstitusiya quruluşunun əsasları və təhlükəsizliyi əleyhinə olan cinayətlər;
- ədalət mühakiməsi əleyhinə olan cinayətlər;
- Korrupsiya cinayətləri və dövlət hakimiyyəti, dövlət qulluğu mənafeyi, yerli özünüidarə orqanlarında, habelə kommersiya və ya qeyri-kommersiya təşkilatlarında qulluq mənafeyi əleyhinə olan cinayətlər;
- idarəetmə qaydası əleyhinə olan cinayətlər.

Göstərilən cinayətlər içərisində ən ictimai təhlükəli sayılan cinayətlər birinci fəsildə olan dövlətin konstitusiya quruluşunun əsasları və təhlükəsizliyi əleyhinə olan cinayətlərdir. Çünki göstərilən cinayətlərin törədilməsi ilə həmin

bölmədə olan digər ictimai münasibətlərə də olduqca ciddi ziyan dəyir. Nəticə etibarılə isə dövlətin təhlükəsizliyi və siyasi stabiliyi, iqtisadi və siyasi qüdrəti, beynəlxalq nüfuzu və hörməti sarsılmış olur.

Konstitusiya quruluşunun əsasları – bizim cəmiyyətə xas olan və Konstitusiyanın 2-ci fəslində öz əksini tapan dövlət quruluşunun başlıca prinsiplərini, şəxsiyyətin hüquqi statusunu, Azərbaycan Respublikasının iqtisadi və siyasi sisteminin əsasını təşkil edən ictimai münasibətlərin məcmusudur.

Dövlətin təhlükəsizliyinin əsasları dedikdə isə - şəxsiyyətin başlıca həyati maraq və mənafelərinin mühafizəsi, insanların layiqli həyat səviyyəsinin təmini, şəxsiyyətin inkişaf prespektivlərini nəzərdə tutan şəraitin yaradılmasının, bütünlükdə cəmiyyətin və dövlətin normal və sağlam inkişafı nəzərdə tutulur (11, 126-127).

Göstərilənlərin hamısını bilavasitə obyekt kimi tədqiq etmək isə zənnimizcə, daha məqsədəmüvafiq olardı. Bu baxımdan Rusiya cinayət hüququ ədəbiyyatlarında bir qayda olaraq aşağıdakı təsnifat yer almışdır:

- dövlətin konstitusiya quruluşuna qəsd edən cinayətlər;
- dövlətin təhlükəsizliyinə qəsd edən cinayətlər.

Azərbaycan Respublikasının cinayət hüququ dərsliklərində isə Cinayət Məcəlləsinin 31-ci fəslinə daxil olan cinayət əməlləri aşağıdakı kimi təsnif olunur:

- Azərbaycan Respublikasının xarici təhlükəsizliyinə qəsd edən cinayətlər (274, 275, 276);
- Azərbaycan Respublikasının daxili təhlükəsizliyinə qəsd edən cinayətlər (277, 278, 279, 280, 281);
- insan və vətəndaşların konstitusiyada təsbit olunmuş bərabərlik hüququnun pozulmasına qəsd edən cinayətlər (283);
- Azərbaycan Respublikasının özünün müdafiə qüdrətinin zəifləndilməsinə, iqtisadi təhlükəsizliyinə qəsd edən cinayətlər (282, 284, 285).

Göründüyü kimi, hazırkı məqalədə təkcə şəxsiyyətin hüquq və mənafeləri qorunmur, eyni zamanda dövlətin suverenliyi, ərazi bütövlüyü, ərazi toxunulmazlığı, müdafiə qabiliyyətinin mövcudluğu və digər bu kimi maraq və mənafelər də sözügedən mühafizə sisteminə daxildir. Buna görə də, terror aktı cinayətinin obyekti kimi təkcə dövləti xadiminin və ya ictimai xadimin həyatını mühafizə edən ictimai münasibətləri deyil, həm də yuxarıda göstərilən ali nemətləri də daxil etmək lazımdır (3, 678).

Hüquq ədəbiyyatında qeyd olunur ki, terror aktı cinayəti sosial-siyasi cəhətdən dövlət xadiminin və ya ictimai xadimin həyatına qəsd etməklə və ya digər zorakılıq hərəkətləri ilə siyasi rəqibin aradan götürülməsini və bununla da daha ağır ictimai təhlükəli əməlin törədilməsini – terrorizmin törədilməsini ehtiva edir.

Dövlət xadiminin və ya ictimai xadimin həyatına sui-qəsd etmə cinayətinin bilavasitə obyekti dövlətin daxili təhlükəsizliyidir. Buna görə də, müvafiq cinayət əməlinin ikiobyektli olması hüquq ədəbiyyatında göstərilir:

1. Dövlətin daxili təhlükəsizliyi - Azərbaycan Respublikasının konstitusiya quruluşu, siyasi sabitliyi, çoxpartiyalılıq sistemi və digər mühüm konstitusion əsaslar;
2. Azərbaycan Respublikasının dövlət xadiminin və ya ictimai xadimin həyatını mühafizə edən xüsusi ictimai münasibətlər.

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 277-ci maddəsində cinayətdən zərərçəkən şəxslərin dəqiq siyahısı verilmişdir. Onlara daxildir:

- dövlət xadimi;
- ictimai xadim;
- xarici dövlətin nümayəndəsi.

Dövlət xadimi dedikdə, Azərbaycan Respublikası ərazisində dövlət həyatının və ictimai həyatın müxtəlif sahələrində dövlət siyasətinin əsas istiqamətlərini müəyyən edən və onu bilavasitə həyata keçirən dövlət hakimiyyət orqanlarının rəhbərləri başa düşülür.

Terror aktı cinayətinin obyektiv cəhəti qanunda dövlət və ya ictimai xadimin həyatına sui-qəsd etmə kimi müəyyən edilmişdir. Qəsd dedikdə, adam öldürməyə sui-qəsdin istənilən növü başa düşülür. Təqsirkarın istifadə etdiyi üsul və vasitələrin əməlin 277-ci maddə ilə tövsifi üçün heç bir əhəmiyyəti yoxdur. Onlar sadəcə olaraq yüngülləşdirici və ya ağırlaşdırıcı hallarda nəzərə alına bilərlər. Göstərilən kateqoriya cinayət kəsik tərkibli cinayətdir. Belə ki, cinayət zərərçəkmişin bilavasitə həyatdan məhrum etməyə yönəldilmiş istənilən hərəkətlərin edildiyi andan cinayət başa çatmış hesab olunur (8, 355).

Terror aktı cinayətinin subyektiv əlamətləri ondan ibarətdir ki, göstərilən əməl 16 yaşına çatmış istənilən anlaqlı fiziki şəxs tərəfindən birbaşa qəsdlə törədilir (5, 127).

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 277-ci maddəsində terror aktına leqal anlayış verməklə, həm də törədilən əməlin subyektiv əlamətini də ehtiva edir. Həmin anlayışa görə terror aktı - dövlət xadiminin və ya ictimai xadimin, habelə xarici dövlət nümayəndəsinin xidməti və ya siyasi fəaliyyətinə son qoymaq və ya bu fəaliyyətə görə qisas almaq məqsədi ilə onun həyatına sui-qəsd etməkdir. Verilən anlayışda subyektiv cəhətin müvafiq əməl üçün zəruri əlaməti olan məqsəd törədilən əmələ olan psixoloji münasibətin elementi kimi xüsusi qabardılmışdır. Cinayətin subyektiv cəhəti dedikdə, cinayətin bilavasitə törədilməsi ilə əlaqədar şəxsin psixi fəaliyyətidir. Terror aktı cinayəti də bilavasitə təqsirin birbaşa qəsd növü ilə törədilən ictimai təhlükəli xüsusilə ağır cinayətdir.

**ƏDƏBİYYAT**

1. Ağayev İ.B. Azərbaycan Respublikasının cinayət hüququ (ümumi və xüsusi hissələr). Dərslik. Bakı: Nurlar NPM, 2010, 832 s.
2. Ağayev İ.B. Cinayət tərkibi. Dərs vəsaiti. Bakı: Təhsil, 2005, 496 s.
3. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin Kommentariyası / Prof. F.Y.Səməndərovun redaktəsi ilə. Bakı: Digesta, 2009, 1012 s.
4. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi. Bakı: Qanun, 2012, 356 s.

5. Асланов Р.М. Преступления против государственной власти. Спб.: Санкт-Петербург, 2004, 285 с.
6. Əfəndiyev E.M. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi: mənbəyi, şərhi, tətbiqi. Beş cilddə (IV cild). Bakı: Hüquq ədəbiyyatı, 2006, 854 s.
7. Səmədova Ş.T. Cinayətlərin kateqoriyaları. Bakı: Adiloğlu, 2007, 314 s.
8. Səməndərov F.Y. Cinayət hüququ. Ümumi hissə: Ali məktəblər üçün dərslik. Yenidən işlənmiş təkrar nəşr. Bakı: Digesta, 2007, 700 s.
9. Дьяков С.В. Государственные преступления и государственная преступность. М.: Норма, 2007, 255 с.
10. Уголовное право России. Особенная часть / под ред. В.Н. Кудрявцева, А.В. Наумова, М.: Проспект, 2008, 599 с.
11. Уголовное право России. Учебник / под ред. А.И. Рарога, М.: Норма, 2009, 433 с.

## ПОНЯТИЕ И ОБЩЕСТВЕННАЯ ОПАСНОСТЬ ТЕРАКТА

**Э.Э.НАГИЕВ**

**РЕЗЮМЕ**

В статье анализируются принципы и пункты Конституции Азербайджанской Республики и Уголовного Кодекса Азербайджанской Республики, отражающие понятие террористического акта и ее опастности обществу.

**Ключевые слова:** преступление против государста, коррупционное преступление, вооруженное восстание, террористический акт, вооруженные группы

## THE CONCEPT AND PUBLIC DANGER OF TERROR ACTS

**E.E.NAGHIYEV**

**SUMMARY**

The article analyzes the principles and clauses of the Constitution, and the Criminal Code of the Republic of Azerbaijan that reflect the notion of terror act and its dangers for the society.

**Key words:** crimes against the state, corruption crimes, armed conjugated uprising, terror act, armed groups